

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 30 (23.442)

14 fevral 2020-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi müzakirə edilib, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın əhəmiyyətinə toxunulub, bu yaxınlarda Bakıda keçiriləcək Cənub Qaz Dəhlizi Məşvərət Şurasının növbəti toplantısında Avropa İttifaqının yüksək səviyyədə iştirak etmək niyyətində olmasının önəmi vurğulanıb və əlaqələrimizin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



*“İxrac ili” – 2020*

## Naxçıvanın ixrac potensialı daha da artacaq

***Müstəqillik illərində Naxçıvan Muxtar Respublikası misilsiz inkişaf yolu keçmişdir. Qısa vaxt ərzində belə bir yeniləşmə və yüksəlişə nail olmaq çox çətindir. Muxtar respublikada həmin dövrdə həyata keçirilən quruculuq, abadlıq və yenidənqurma işləri, yeni sənaye müəssisələrinin yaradılması, yerli istehsal sahələrinin genişləndirilməsi ümummilli lider Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi nəticəsində mümkün olmuşdur.***

Son illərdə yeni istehsal və xidmət sahələrinin fəaliyyətə başlaması daxili bazarda məhsul bolluğu yaratmaqla bərabər, muxtar respublikanın ixrac potensialını artırmış, idxalın həcmini isə azaltmışdır. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2020-ci il 6 fevral tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında 2020-ci il “İxrac ili” elan edilmişdir. Həmin Sərəncamda deyilir: *“Həyata keçirilən uğurlu iqtisadi siyasət sənayeləşmə prosesini daha da sürətləndirmiş, rəqabətədavamlı və ixracyönlü məhsullar istehsal edən yeni müəssisələr yaradılmış, yerli istehsalın şaxələndirilməsi xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərmişdir”.*

Müstəqilliyin ilk illərində muxtar respublika iqtisadiyyatı xeyli dərəcədə idxaldan asılı idi. Sovetlər Birliyi dövründə iqtisadi əlaqələr bəzən düzgün qurulmadığından, ikili siyasət aparıldığından regionlara, onların iqtisadi inkişafına lazımi diqqət yetirilmirdi. Ulu öndər Heydər Əliyev Azərbaycanda rəhbərliyə gələndən sonra – XX əsrin 70-ci illərində bu prosesə lazımi diqqət göstərilmiş, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı üçün bir sıra tarixi qərarlar qəbul olunmuşdur. Ulu öndər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən xarici iqtisadi əlaqələrin əsasını yaratmış, ikinci dəfə Azərbaycana rəhbərliyə qayıtdıqdan sonra bu işi müstəqil dövlət quruculuğu istiqamətində daha böyük qətiyyətlə davam etdirmişdir. İqtisadiyyatın inkişafı və qarşıya çıxan problemlərin həlli xarici iqtisadi, eləcə də xarici ticarət əlaqələrinin necə qurulmasından asılıdır. Ona görə də müasir dövrdə xarici iqtisadi əlaqələr iqtisadiyyatın inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir.

Bəhs olunan dövrdə yaxın xarici dövlətlərlə iqtisadi əlaqələrin qurulmasında ümummilli liderimizin müstəsna rolu olmuşdur. Naxçıvanda işlədiyi zaman ulu öndərin qonşu və qardaş Türkiyə ilə qurduğu əlaqələr diyarımızın taleyi üçün mühüm əhəmiyyət kəsb etmişdir. Görkəmli dövlət xadiminin 1992-ci ilin martında Türkiyə Cümhuriyyətinə, həmin ilin avqustunda İran İslam Respublikasına səfərləri, səfər zamanı imzalanmış əməkdaşlıq protokolları Naxçıvanın iqtisadi əlaqələrinin genişlənməsinə səbəb olmuşdur. Sonrakı illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramları regionlarda əlverişli investisiya mühiti yaratmış, infrastruktur yenilənmiş, sahibkarlıq genişlənmiş, xarici iqtisadi əlaqələrin coğrafiyası artmış, müasirtipli istehsal müəssisələri yaradılmışdır. 2003-cü illə müqayisədə 2008-ci ildə muxtar respublikada ümumi daxili məhsulun həcmi 5 dəfə artmışdır. Bu müddətdə sənayedə 9, kənd təsərrüfatında 2, əsaslı vəsait qoyuluşlarının həcmində isə 5 dəfə artım müşahidə edilmişdir. 2009-cu ilin birinci yarımilində isə ən yüksək göstərici xarici ticarət sektorunda baş vermişdir. 1995-ci ildə 1 milyon 937 min, 2009-cu ilin altı ayı ərzində isə 49 milyon 354 min 900 ABŞ dolları həcmində ixrac olmuşdur. Beləliklə, muxtar respublikada ilk dəfə olaraq 2009-cu ildə xarici ticarətdə müsbət saldo yaranmışdır. 2010-cu və sonrakı illərdə də bu proses uğurla davam etdirilmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun birbaşa rəhbərliyi və bu istiqamətdə gördüyü işlər, nəticə etibarilə, muxtar respublikada iqtisadi inkişafa, rəqabətqabiliyyətli məhsulların istehsalına və ixrac potensialının artmasına səbəb olmuşdur.

Sənaye müəssisələrinin yaradılması, enerji təhlükəsizliyinin təmin edilməsi, yeni elektrik stansiyalarının qurulması həm sənaye mallarının, həm də elektrik enerjisinin ixracını təmin etmişdir. 2003-cü ildə muxtar respublikada 66 sənaye müəssisəsi, 1 elektrik enerjisi istehsal edən müəssisə fəaliyyət göstərirdisə, 2019-cu ildə müvafiq olaraq onların sayı 442 və 9-a çatmışdır. Əgər 2003-cü ildə muxtar respublikaya 949 milyon kilovat-saat elektrik enerjisi idxal olunmuşdursa, 2018-ci ildə 32,4 milyon kilovat-saat elektrik enerjisi ixrac olunmuşdur. Xarici ticarət dövriyyəsi ilbəil artmış və ixrac idxalı üstələmişdir. 2015-ci ildə 512 milyon 354 min 500 ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi yaranmışdır ki, bunun da 414 milyon 420 min 600 ABŞ dollarını ixrac, 97 milyon 933 min 900 ABŞ dollarını isə idxal təşkil etmişdir. 1995-ci illə müqayisədə xarici ticarət dövriyyəsi 2015-ci ildə 26,9, o cümlədən ixracın həcmi 213,9 dəfə artmışdır. 2015-ci ildə xarici ticarətdə 316 milyon ABŞ dollarından artıq həcmdə müsbət saldo yaranmışdır.







Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, dünyaya açılması, yerli istehsal məhsulları ilə yaxın və uzaq ölkələrin bazarlarına yol tapması, xarici ölkələrin sahibkarlarının maraq dairəsinə çevrilməsi, yerli sahibkarlığın inkişafı muxtar respublikanın xarici ticarət dövriyyəsinin dinamik artımını təmin etmişdir. Aparılan sənayeləşmə və ixracyönlü məhsul istehsalı uğurlu nəticələr vermiş, 2009-cu ildən başlayaraq ixracın həcminin idxalı üstələməsi sonrakı illərdə də davam etmişdir. 2019-cu ildə muxtar respublikanın xarici ticarət dövriyyəsi 497 milyon 68 min 600 ABŞ dolları təşkil etmişdir. Xarici ticarət dövriyyəsinin 425 milyon 539 min 400 ABŞ dollarını ixrac, 71 milyon 529 min 200 ABŞ dollarını idxal təşkil etmiş və 354 milyon 10 min 200 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

Bu gün artıq Naxçıvan Muxtar Respublikası dayanıqlı inkişafa malik, ixrac imkanlarını hər il daha da artıran müasir bir diyar kimi nüfuzlu beynəlxalq qurumların, investorların da diqqətini cəlb edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ilk sədri olduğu “Caspian European Club”un ölkədə həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikası regionlarının illik investisiya reytinqinə görə Naxçıvan Muxtar Respublikası 2 il ard-arda ən yüksək ümumi bal toplayaraq investisiya reytinqində lider olmuşdur. Muxtar respublikada sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsi olaraq yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, mövcud istehsal müəssisələrinin yenidən qurulması istiqamətində aparılan uğurlu islahatlar bu sahənin sürətli inkişafına zəmin yaratmışdır. İstər ölkəmizdə, istərsə də xaricdə keçirilən beynəlxalq iqtisadi tədbirlərdə, o cümlədən biznes forumlar, sərgilər, seminar və konfranslarda naxçıvanlı sahibkarların iştirakı da muxtar respublikanın ixrac imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Son illər keçirilmiş 200-dən çox yerli və beynəlxalq əhəmiyyətli tədbirdə muxtar respublikadan 1000-dən çox nümayəndə iştirak etmiş, 500-dən çox çeşiddə məhsul Rusiya, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Fransa, Türkiyə, Belarus, Avstriya, Polşa, İran və digər ölkələrdə nümayiş olunmuşdur.

“Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqına məxsus şirkətlər tərəfindən istehsal edilən məhsullar daxili tələbatı ödəməklə yanaşı, Müstəqil Dövlətlər Birliyi ölkələrinə də ixrac olunur. Holdinq Türkiyədə, Rusiyada, İsveçrədə, Birləşmiş Ərəb Əmirliklərində və Çin Xalq Respublikasında öz filiallarını açaraq xarici bazarlarda təmsil olunmağa başlamış, Rusiyanın Moskva, Türkiyənin İqdır şəhərlərində yeni satış mərkəzləri yaradılmışdır. Bunlarla yanaşı, Bakı, Gəncə, Masallı, Quba, Goranboy və Şəki şəhərlərində xidmət sahələri açılmışdır.

Bu günlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşü zamanı demişdir: ***“İstehsal olunan məhsulların ixrac potensialını yaratmadan özəl bölmənin inkişafından danışmaq mümkün deyil. Bu sahədə dövlət üzərinə düşən vəzifələri yerinə yetirir, sahibkarlara dəstək verir, ixracın təşviqi sahəsində ardıcıl tədbirlər görülür. Nəticə uğurludur. 10 ildən artıqdır ki, muxtar respublikanın xarici ticarət dövriyyəsində müsbət saldo qeydə alınır. 2019-cu ildə də muxtar respublikanın xarici ticarət dövriyyəsinin həcmi 497 milyon ABŞ dollarından çox olmuş, ticarət əməliyyatlarının 85 faizindən çoxu ixracın payına düşmüşdür”.***

Muxtar respublikamız bütün istiqamətlər üzrə böyük nailiyyətlər qazanmışdır. Ölkə Prezidenti cənab İlham Əliyev Naxçıvanda aparılan irimiqyaslı quruculuq tədbirlərini, sosial-iqtisadi inkişafdakı davamlı və sürətli dəyişiklikləri yüksək qiymətləndirmişdir: ***“Naxçıvan son illər ərzində böyük dərəcədə inkişaf etmişdir, həm sosial sahədə, iqtisadi sahədə, sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımlar atılmışdır. Bu, çox sevindiricidir. Xüsusilə nəzərə alsaq ki, Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, üç tərəfdən düşmənlə əhatə olunub. Buna baxmayaraq, respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir”.***

Bütün bunlar bir daha göstərir ki, muxtar respublikamızın sosial-iqtisadi inkişafı davamlı olduğu kimi, onun ixrac potensialı da ilbəil artmaqdadır.

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri***

*Ailə təsərrüfatları hazırda muxtar respublikamızda geniş yayılmış fəaliyyət sahələrindən biridir. Son illərdə aqrar sahədə çalışan təsərrüfat sahiblərinə dövlət dəstəyi nəticəsində güzəştli şərtlərlə kreditlərin verilməsi, istehsal olunan məhsulların qablaşdırılması, dizaynının tərtib edilməsi, taralarla təchiz olunması və satış üçün geniş imkanların açılması ailə təsərrüfatlarının yaradılmasına marağı daha da artırıb. 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr və 2019-cu il 18 yanvar tarixli sərəncamları ilə Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər planlarının təsdiq olunması isə onların fəaliyyəti üçün daha geniş imkanlar açıb.*

**Mətbu startap layihələri**

# Ailə təsərrüfatları çoxprofilli fəaliyyət sahəsinə malikdir

## Muxtar respublikada belə təsərrüfatların qeyri-ərzaq sektorunda da fəaliyyəti zamanın tələbidir

Təkcə 2019-cu ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 84 ailə təsərrüfatına 753 min 100 manat dövlət maliyyə dəstəyi göstərilməsi, 315 ailə təsərrüfatının 12 min 800-dən çox tara ilə təmin olunması ailə biznesinin genişlənməsinə şərait yaradıb. Vurğulamaq lazımdır ki, ötən il Naxçıvan şəhərində və muxtar respublikanın rayon mərkəzlərində "Ailə təsərrüfatı məhsulları" festivallarının keçirilməsi, kənd təsərrüfatı yarmarkalarının təşkili, eləcə də ticarət obyektlərində belə təsərrüfatlarda istehsal olunmuş məhsulların satışı üçün yeni bölmələrin yaradılması ailələr tərəfindən istehsal olunan məhsulların satışına öz müsbət təsirini göstərib. Bununla yanaşı, muxtar respublikamızda nümunəvi ailə təsərrüfatlarının iş təcrübələrinin digərlərinə aşılanması da bu fəaliyyət sahəsi ilə məşğul olanların təcrübə qazanmasına töhfə verib. Həmçinin ailə təsərrüfatlarının ildən-ilə inkişaf etməsi onların vahid birliyinin formalaşdırılmasını zəruri edib ki, bu da ötən il muxtar respublikamızda Ailə Təsərrüfatları İctimai Birliyinin yaradılmasına imkan verib. Burada da əsas məqsəd təsərrüfat sahibləri arasında birgə koordinasiyanı təşkil etmək, onlarla təcrübəni bölüşmək, görülən işlərin iqtisadi həyatda tətbiqini daha səmərəli formada həyata keçirməkdən ibarətdir.

Təbii ki, muxtar respublikamızda ailə təsərrüfatlarının inkişaf etdirilməsi sahəsində görülən işlər istər daxili bazarın keyfiyyətli yerli kənd təsərrüfatı məhsulları ilə təmin olunmasında, istərsə də istehsal olunan məhsulların ixracı baxımından mühüm əhəmiyyət daşıyır. Çünki muxtar respublikamızın kənd təsərrüfatı potensialı böyükdür və bu, imkan verir ki, ailələr tərəfindən istehsal olunan məhsullar həm ölkəmizin regionlarına, həm də digər xarici ölkələrə ixrac olunsun. Ancaq məsələnin digər əhəmiyyətli tərəflərindən biri də budur ki, biz ailə təsərrüfatları dedikdə, sadəcə, aqrar yönümlü sahələri nəzərdə tutmamalıyıq. Ötən yazılarımızda da qeyd etmişdik ki, bu gün inkişaf etmiş ölkələrdə ailə şirkətlərinin ölkədəki bütün şirkətlərə nisbətən faizi 70 faizdən yuxarı rəqəmlərlə ölçülür. Və yaxud Almaniya, İngiltərə və adını sadalamadığımız bir çox ölkələrdə ümumi işçi sayının 50, 60, bəzi hallarda isə 70-75 faizi ailə bizneslərində çalışanlardır. Belə ailə bizneslərinin fəaliyyəti isə təkcə kənd təsərrüfatı sahələri ilə məhdudlaşmır. Bu gün inkişaf etmiş və etməkdə olan ölkələrin nümunəsində saysız-hesabsız sənaye, xidmət, sənətkarlıq sahələri üzrə fəaliyyət göstərən ailə təsərrüfatları var. Lakin onların da yaradılması potensial imkanlara, mövcud şəraitə əsaslanır. Eyni zamanda rentabellilik burada əsas şərtdir. Necə deyərlər, hər bir işin sonunda maddi marağın olması bazarın təbii tələbidir. Bu gün Avropanın inkişaf etmiş ölkələrinə baxsaq, görərik ki, üçüncü sənaye inqilabından sonra həmin ölkələrdə sənətkarlıq və toxuculuq sahələrinin, demək olar ki, böyük əksəriyyəti kiçik ailə təsərrüfatlarının əlində idi. Bu ailə bizneslərinin bir çoxu böyüyərək sonralar iri şirkətlərə (ailə şirkətlərinə) çevrildilər, bəziləri isə rəqabətə dözməyərək dağılmağa, üzvləri isə böyük müəssisələrdə işçi kimi çalışmağa məcbur oldular. Ancaq bütün bunlara baxmayaraq, bu gün Avropada minlərlə ailə təsərrüfatları var ki, belə ailələr tərəfindən müxtəlif toxuculuq məmulatları, məişət əşyaları, suvenirlər, əl əməyinə əsaslanan oyuncaqlar istehsal olunur. Hələ mən uzun illərdir, məşhur "Mercedes-Benz" avtomobilləri üçün ehtiyat hissəsi istehsal edən alman ailəsindən danışmıram. Hansı ki həmin ailə təsərrüfatının adı (ailənin dörd üzvü var) bu məşhur avtomobil istehsalçısının outsorsinq etdiyi (müəyyən funksiyaların digər şirkətlərə verilməsi) şirkətlərin siyahısındadır.




Bəs eyniadlı məhsulun eyni bölgədə həm böyük müəssisələr, həm də ailə təsərrüfatlarında istehsalı mümkündürmü? Təcrübə göstərir ki, mümkündür. Bu da onunla əlaqədardır ki, ailə təsərrüfatlarında hazırlanan məhsullar hər zaman özünəməxsusluğu ilə seçilir. Çünki fabrikdə işləyən yüzlərlə işçidən fərqli olaraq ailə üzvü istehsal etdiyi məhsulun tərkibinə, keyfiyyətinə daha ehtiyatla yanaşır, məhsulun "nazını daha çox çəkir", ona əlavə dəyər qatır. Ən əsası ailə üzvü bilir ki, ailənin istehsal etdiyi məhsul birbaşa onun adı ilə bağlıdır. Bu ad ona istehlakçını qazandırar da, itirər də. Elə bunun nəticəsidir ki, bu gün biz bazarda sənaye üsulu ilə hazırlanmış məsələn, qatıq, süd, yağ məhsulları ilə yanaşı, ailə təsərrüfatlarında hazırlanmış eyniadlı məhsullara da rast gəlirik. Hər istehsalçının isə özünə uyğun alıcı kütləsi var. Qeyri-ərzaq sektorunda da belədir. Məsələn, hazırda qardaş Türkiyə Respublikasının bir çox bölgələrində yüzlərlə ailə təsərrüfatı var ki, bu ailələr tərəfindən ev şəraitində təbii sabunlar istehsal olunur. Sənaye üsulundan fərqli olaraq müxtəlif bitki ekstraktlarından hazırlanan həmin təbii sabunların istehsalının qarşısını böyük kimyəvi məhsullar istehsal edən fabriklər belə, ala bilmədilər. Səbəb isə budur: xalq uzun illər ənənəvi olaraq ev şəraitində təbii yollarla hazırlanmış və insan orqanizminə zərəri olmayan bu sabunları müasir, kimyəvi yollarla ətir və rəngləndirici əlavə edilmiş eyniadlı məhsullardan daha faydalı hesab edir. Və yaxud götürək xidmət sahələrini. Bu gün turizmin inkişaf etdirildiyi bir çox bölgələrdə böyük otellərdən fərqli olaraq təbiət qoynunda yerləşən kiçikhəcmli mehmanxana və qonaq evlərində xidmət göstərən personalın, demək olar ki, əksəriyyəti kiçik ailə təsərrüfatlarıdır. Dəfələrlə qonşu ölkələrdə də çoxumuz rast gəlmişik ki, bu cür istirahət məkanlarında obyektin sahibi də, xidmətçiləri də bir ailənin üzvləridir. Bunları xatırlatmaqda məqsədimiz odur ki, bu gün muxtar respublikamızda da turizmin inkişafı üçün mühüm layihələr həyata keçirilir, bu sahədə dövlət proqramı qəbul olunub. Kənd turizminin inkişafı üçün bizdə böyük potensial var. Xüsusilə son illərdə bir çox dağ kəndlərinə əcnəbi turistlərin maraq göstərdiyinin şahidi oluruq. Hətta dövlət tərəfindən həmin kəndlərdə yaşayan bir çox insanlara evlərin turistlərə kirayə verilməsi də təşviq olunur. Ancaq təəssüflər olsun ki, bu işlər kənd sakinləri tərəfindən sistemli olaraq diqqət mərkəzində saxlanılmır. Bəzilərimiz butipli kirayəni turistin yalnız bir gecəlik qalması kimi qəbul edirik. Halbuki turist əgər həmin bölgəyə gəlirsə, deməli, orada gəziləcək, öyrəniləcək, maraq cəlb edəcək çox şey var. Bunun üçünsə bələdçiyə ehtiyac var. Səyahət uzun çəkirsə, deməli, orada kirayə qalmağa ehtiyac duyulur. Kirayə verilən evdə isə təbii ki, səhər yeməyinə tələbat yaranacaq. Bütün bunlar isə maliyyə deməkdir. Ailə təsərrüfatları da məhz bu amilə diqqət yetirməli, bütün bunları nəzərə almalı, hətta bu prosesi "uzatmağa" çalışmalıdırlar. Sual oluna bilər ki, əcnəbilərin həmin bölgələrə səyahətləri hələlik kütləvi xarakter daşımır. O zaman xatırladaq ki, mövsüm ərzində belə turizm bölgələrinə yerli sakinlər də çox üz tutur. Adətən, həftə sonları ailəvi şəkildə həmin kəndlərə yolu düşən sakinlərin isə, sözün həqiqi mənasında, lazımi xidmətlərdən istifadə etməyə ehtiyacı olur. Lakin təəssüf ki, biz hələlik turizm infrastrukturu yüksək olan belə bölgələrdən bu xidmətləri lazımi səviyyədə təqdim edəcək ailə təsərrüfatlarına rast gəlmirik. Ancaq ümid edirik ki, yaxın gələcəkdə həm xidmət sektorunda, həm də qeyri-ərzaq sektorunda fəaliyyət göstərəcək ailə təsərrüfatlarını görə biləcəyik. Çünki bu həm də zamanın tələbidir.

**Səbuhi HƏSƏNOV**

# Pensiyalar artımla birlikdə ödənilmişdir



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu sosialyönümlü siyasəti nəticəsində ölkədə bu sahənin bütün istiqamətlərində mühüm addımların atılmasına, o cümlədən pensiya təminatının ildən-ilə gücləndirilməsinə nail olunmuşdur. 2019-cu ildə dövlət başçısının təşəbbüsü ilə həyata keçirilən sosial islahat paketləri nəticəsində minimum əməkhaqqı, təxminən, 2 dəfə, minimum əmək pensiyasının məbləği 75 faizə yaxın artırılıb. Bu isə əhalinin, xüsusən aztəminatlı təbəqəsinin, o cümlədən pensiyaçıların rifah halının yaxşılaşdırılmasına müsbət təsir göstərib.*

Ötən il minimum əməkhaqqının və dövlət sektoru ilə yanaşı, özəl sektorda çalışanların əməkhaqlarının artırılması ölkədə ortaaylıq nominal əməkhaqqının da əhəmiyyətli dərəcədə – 16,6 faiz artması ilə nəticələnib. Bu isə, öz növbəsində, qanunvericiliyə əsasən 2020-ci ildə pensiyaların sığorta hissəsinin 16,6 faiz indeksləşdirilərək artırılmasına imkan verib.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 29.2-ci maddəsinə uyğun olaraq "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 6 fevral tarixli Sərəncamına əsasən əmək pensiyalarının sığorta hissəsinin 2019-cu il üzrə ortaaylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 1 yanvar tarixinə 16,6 faiz artırılması nəzərdə tutulub.

Həmin sərəncamın icra edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxs tərəfindən müvafiq tədbirlər həyata keçirilib, muxtar respublika üzrə əmək pensiyaçılarının pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi barədə şəhər və rayon şöbələrinə müvafiq tapşırıqlar verilib. Fondun yerli orqanları tapşırıqların vaxtında yerinə yetirilməsini diqqət mərkəzində saxlayaraq bütün növ əmək pensiyaları üzrə pensiyaların sığorta hissəsinin artırılması prosesini başa çatdırıb, yanvar ayının artımları da daxil olmaqla, fevral ayının pensiya ödənişində bütün növ əmək pensiyalarının ödənilməsinin maliyyələşdirilməsi təmin edilib.

Fond tərəfindən muxtar respublika üzrə əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi hərbi qulluqçular, xüsusi rütbəli şəxslər və dövlət qulluqçusu kimi əmək pensiyası alan pensiyaçılar istisna olmaqla, 48 min 500 nəfərə yaxın əmək pensiyaçısına şamil edilib.

Bu artımların ödənilməsinin həyata keçirilməsinə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsin büdcəsindən hər ay orta hesabla 1,7 milyon manata yaxın əlavə vəsait ayrılması nəzərdə tutulur.

Əmək pensiyalarının sığorta hissəsində müvafiq artımların aparılması ilə yanaşı, istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq muxtar respublikada fərdi uçot sistemində qeydiyyatda olan 177 min 614 sığortaolunanın fərdi hesabının sığorta hissəsində toplanmış pensiya sığorta kapitalı məbləğlərinin isə yanvar ayının 1-dən indeksləşdirilməklə 2,6 faiz artırılması elektron qaydada həyata keçirilib. Pensiya-sığorta kapitalında artım isə sığortaolunanlara gələcəkdə təyin olunacaq pensiyaların məbləğinin müəyyənləşdirilməsində əsas rol oynayacaqdır.

Bu, bir tərəfdən də sığortaolunanların sosial sığorta sistemində fəal iştirakı üçün stimul yaratmaqla bərabər, əmək müqaviləsi ilə işləyənlər fərdi hesablarındakı pensiya kapitalının təkcə hər ay sosial sığorta ayırmaları ilə deyil, eyni zamanda dövlət tərəfindən hər ilin əvvəlində indeksləşdirilərək artırıldığının şahidi olurlar. Ona görə də qeyri-formal məşğulluq sahəsində işləyən vətəndaşlar öz əmək fəaliyyətlərini rəsmiləşdirməlidirlər ki, pensiya kapitalına malik olsunlar, hər il dövlət tərəfindən həmin pensiya kapitallarının indeksləşdirilərək artırılması imkanlarından faydalansınlar, beləliklə də pensiya təminatı hüququna malik olsunlar.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsin mətbuat xidməti***

# Kartof əkininə hazırlıqla əlaqədar seminar-müşavirə keçirilib

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Babək Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayonun bir qrup torpaq mülkiyyətçisi və ailə təsərrüfatı başçılarının iştirakı ilə "Kartof əkinlərinə hazırlığın vəziyyəti və keyfiyyətli toxum tədarükü" mövzusunda seminar-müşavirə keçirilib.*



Müşavirəni Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Nihal Məmmədov açaraq rayonda aqrar sahənin inkişaf etdirilməsi və bu sahəyə hərtərəfli dövlət dəstəyinin göstərilməsi barədə danışıb.

Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Xaliq Abbasov kartof əkini üçün sahələrin hazırlanması mövzusunda çıxış edərək son illərdə bu sahənin inkişafında qazanılan uğurlu nəticələrdən danışıb. Qeyd olunub ki, kartof əkinlərindən daha artıq gəlir götürmək üçün bütün aqrotexniki tədbirlər vaxtında və keyfiyyətlə yerinə yetirilməlidir. Kartof əkiləcək sahəyə sələf bitkiləri yığılan kimi hər hektara 20-30 ton hesabı ilə üzvi gübrə verilməli, sahələr 28-30 santimetr dərinlikdə şumlanmalıdır. Kartof üzvi və mineral gübrələrə tələbkar bitkidir. Ona görə də gübrələmə sistemində əsas və əlavə, yəni yemləmə şəklində verilən gübrələr daxildir.

Nazirliyin əməkdaşı Əli Hüseynov keyfiyyətli toxum tədarükü və toxumun dərmanlanmasından danışaraq bildirib ki, yüksək məhsuldarlığın başlıca şərtlərindən biri əkin materialıdır. Əkin üçün istifadə olunacaq toxum standarta uyğun, sağlam cücərmə qabiliyyətinə malik və yüksək reproduksiyalı olmalıdır. Əkindən qabaq kartof yumrularının cücərdilməsi çox vacib aqrotexniki tədbirdir. Bu, onların torpaq səthinə tez çıxmasına şərait yaradır. Maşınla əkilən kartof toxumunun cücərdilməsi əl ilə əkilən toxumun cücərdilməsindən fərqli olmalıdır. Belə ki, kartof toxumları 0,3-0,5 santimetrə qədər cücərdilərək əl ilə əkilə bilər. Ancaq maşınla əkiləcək toxumlar cücərtilər göründüyü andan əkinə başlanılmalıdır. Əkinə hazırlıq işlərinin son mərhələsi toxumun əkinqabağı dərmanlanmasıdır.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb və maarifləndirici informasiya vərəqələri paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

# Duz Muzeyində bir gün

## *Ziyarətdən doğan təəssüratlar, düşüncələr, müzakirələr...*



*Naxçıvan Duz Muzeyi xalqımızın tarixinə, mədəniyyətinə, milli-mədəni dəyərlərinə göstərilən böyük qayğının bir ifadəsi kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamına əsasən yaradılıb, 2018-ci il aprel ayının 25-də isə istifadəyə verilib.*

*Çoxdandır, Naxçıvan duzunun tarixdə oynadığı mühüm rolun dünyaya çatdırılması, aparılan elmi araşdırmalar zamanı əldə olunan maddi mədəniyyət nümunələrinin qorunub saxlanılması və təbliği məqsədilə yaradılan Naxçıvan Duz Muzeyinə bir yerdə getməyi planlaşdırırdıq. Bu mədəniyyət müəssisəsi ilə ümumi tanışlıq əsasında Naxçıvanın duz tarixinə yenidən nəzər salmaq, həmin qədim tarixi, mədəniyyəti gözlərimiz önündə canlandırmaq üçün bu ünvana yollanırıq.*

### *Yolboyu...*

Duz Muzeyinədək yolboyu dünyanın ən qədim duz mədəni hesab edilən möcüzəvi Duzdağ haqqında söhbət edir, fikir mübadiləsi aparırıq:

– Naxçıvanın simvollarından biri hesab edilən, təbii ehtiyatları 90 milyon ton təşkil edən Duzdağ qədim diyarımızda ilkin şəhər mədəniyyətinin formalaşmasında böyük rol oynayıb. Ölkəmizdə təkcə saf və təmiz duzuna görə deyil, həm də şəfaverici xüsusiyyətinə görə tanınan bu dağdan hələ min illər əvvəl, Nuh Peyğəmbər dövründən duz çıxarılıb, Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə duz yolu vasitəsilə bu nemət daşınıb. Bu da onu göstərir ki, buradan yalnız Naxçıvanda məskunlaşan tayfaların ehtiyacı üçün deyil, eyni zamanda qonşu regionların da tələbatını ödəyəcək qədər duz çıxarılıb.

– Qədim Naxçıvan möcüzəsi Duzdağın sirli-sehrli olduğunu burada Nuh Peyğəmbərin duz mədənində çalışması və ilkin şəhər mədəniyyətinin formalaşmasında rolu da təsdiq edir. Bu barədə bir çox mənbələrdə məlumat verilir. Rus tədqiqatçısı Konstantin Nikitin 1882-ci ildə Tiflisdə nəşr olunmuş "Naxçıvan mahalı və Naxçıvan şəhəri" adlı məqaləsində Nuh Peyğəmbərin özünün duz mədənində ilk çalışanlardan olması və şəhər əhalisinə duz çıxarmağı öyrətməsi barədə məlumat verərək yazıb: "Tufandan sonra Nuh hazırda Naxçıvan şəhərinin yerləşdiyi yerdə məskən saldı. O, öz ailəsi ilə burada qərar tutdu və gələcək şəhərin əsasını qoydu. Şəhərin ilk məskunlaşma yeri mənasını bildirən adı da buradan meydana gəlmişdir".

– Sonralar duzçıxarma insanların əsas məşğuliyyət sahəsi kimi onların peşələrindən birinə çevrilib. Duzdağdan arxeoloji qazıntılar zamanı müxtəlif dövrlərə aid daş alətlərlə yanaşı, Eneolit və İlk Tunc dövrlərinə aid keramika məmulatlarının aşkar edilməsi təkcə Azərbaycanda deyil, bütövlükdə, Cənubi Qafqaz və Yaxın Şərq ölkələrində duzun mədən üsulu ilə yalnız Naxçıvanda çıxarıldığını sübut edir.

– Diyarımızın qədim tarixini və mədəni potensialını özündə cəmləşdirən Duzdağ həm də özünün şəfaverici xüsusiyyətinə görə tanınır. 1979-cu ildə yaradılan Duzdağ Fizioterapiya Mərkəzində hazırda bronxial-astma və ağciyər-bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunurlar. Son illərdə muxtar respublikamıza gələn yerli və xarici turistlərin ən çox ziyarət etdikləri ünvanlardan biri olan Duzdağı, hətta müalicə səbəbi olmadan gəlib-görmək istəyənlərin də sayı çoxalıb.

– Naxçıvan Duzdağının tarixi əhəmiyyəti nəzərə alınaraq bu ərazidə aparılan arxeoloji tədqiqatların davamı kimi "Uluslararası qaynaqlarda Naxçıvan", "Nuh Peyğəmbər: Dünya tufanı və Naxçıvan", "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzularında keçirilən beynəlxalq elmi simpozium və konfranslarda Naxçıvanda Duzdağ mədəniyyəti bir daha elmi əsaslarla təsdiqini tapıb, xarici mütəxəssislərin də iştirakı ilə Naxçıvan Duzdağı haqqında elmi materiallar hazırlanıb, kitablar nəşr olunub. Ötən il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyi keçirilib, "Naxçıvan Duzdağı" adlı yeni, nəfis şəkildə nəşr olunan elmi kitab işıq üzü görüb.

### *Budur, mənzil başındayıq*

Söhbətimizin şirin yerində maşınımız "Duzdağ" otelinin qarşısında dayanır. Oteldə yerləşən muzeyə daxil oluruq. Ümummilli liderimiz Heydər Əliyevin söylədiyi və ekspozisiyada da yer alan ***"Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir"*** və ölkə Prezidenti cənab İlham Əliyevin ***"Qədim Naxçıvanın ən möcüzəli yerlərindən biri olan Duzdağın hər qarışında tarixin sirli izləri qalıb"*** fikirləri Naxçıvanın, eləcə də Duzdağın qədim tarixini göstərməklə yanaşı, adamı hər daşın, qayanın, mağaranın izi ilə bu gündən keçmişə aparır.

Girişdə rəssam Qəhrəman Tağıyevin kətan üzərində yağlı boya ilə çəkdiyi "Doğma respublikam" adlı tablosu diqqətimizi cəlb edir. Naxçıvanın tarixi abidələrinin əks olunduğu bu rəsm əsəri qədim diyarımız haqqında müəyyən qədər təəssürat yaradır.

Muzeyin mərkəzində rastlaşdığımız heykəltəraş-rəssam Sabir Məmmədova məxsus Nuh Peyğəmbərin heykəli ilk baxışdan, sanki Nuh tufanının uğultularını qulaqlara, bu hadisənin görüntülərini gözlər önünə gətirir. Əlində duz parçası təsvir olunan bu möhtəşəm heykəl muzeyin dəyərli və cəlbedici eksponatı olmaqla yanaşı, Duzdağla və Naxçıvan şəhər mədəniyyəti ilə bağlı bir çox məqamlardan da "söhbət açır" .

Muzeyin ekspozisiya zalındakı guşədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvan Duz Muzeyinin yaradılması haqqında Sərəncamı, Naxçıvan şəhəri, Nuh Peyğəmbər və Naxçıvan, Duzdağ mədəniyyəti və duz yataqları haqqında dərc olunmuş qəzet materiallarını görürük. Bu materiallardan "Duzun dəyəri" adlı reportaj və "Naxçıvanda allerqoloji mərkəz" adlı məqalə XX əsrin 70-ci illərində buraya gələn xarici jurnalist tərəfindən yazılıb və onların hər ikisində maraqlı məlumatlar öz əksini tapıb.

Birinci və ikinci vitrinlərdə eramızdan əvvəl IV-III minilliklərə aid daş əmək alətləri həm forması, həm də işlənmə xüsusiyyətlərinin müxtəlifliyi ilə seçilir. Bələdçi bildirir ki, bu alətlər Duzdağ mədənində duz süxurlarının parçalanması, duzun döyülərək narın hala salınması üçün istifadə edilib. Eradan əvvəl IV-II minilliklərə aid daş çəkiclər isə muxtar respublikamızda sənətkarlıq ənənələrinin qədim dövrlərdən formalaşdığı təəssüratını yaradır. Ekspozisiyadakı daşdan və gildən, keramika və misdən hazırlanmış duz qabları, duz saxlamaq üçün istifadə olunan gil küpələr, daş alətlər, çapacaqlar, duz torbaları, daş həvəngdəstə və baltalar, duz kristalları, karsit və duz süxurları Naxçıvan Duzdağının qədim tarixini və mədəni potensialını özündə əks etdirən dəyərli eksponatlar kimi diqqəti cəlb edir. Duzdan hazırlanmış və üzərində "Məhəmməd" və "Əli" sözləri yazılmış "Qurani-Kərim" İslama verilən böyük dəyərin ifadəsi olaraq muzeydə yer alır. Naxçıvan duzunun tərkibi haqqında məlumat da burada nümayiş olunur.

Diyarımız duzla bağlı inam və adətlərlə zəngindir. Muzeydə bu barədə şifahi xalq ədəbiyyatı nümunələri də nümayiş etdirilir: "Duzun üzünə gülümsərlər", "Ömrün duz dağına dönsün, duz dağı kimi durasan", "Duz çörək, düz çörək", "Duza, çörəyə gələni incitməzlər" və sair.

Eksponatlar sırasında yer alan, narın duzun saxlanmasında və daşınmasında istifadə olunan duz torbaları, əsasən, ötən əsrin əvvəllərinə aid olub, Azərbaycanda, xüsusən muxtar respublikamızda toxuculuğun inkişafından xəbər verir. Duz torbalarının üzərində müxtəlif həndəsi və nəbati naxışlar öz əksini tapıb.





Azərbaycan Respublikasının Dövlət Bayrağının duzdan hazırlanmış maketi və daşduzdan hazırlanmış əl işləri də muzeyin maraqlı eksponatlarındandır. Naxçıvanın özünəməxsus simvollarını özündə əks etdirən "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqotipinin duz üzərinə işlənməsi də diqqəti cəlb edir. Bu loqotip, eləcə də muzeydə sərgilənən duzdan hazırlanan əl işləri keramikaçı – rəssam Ədalət İsmayılova məxsusdur.

Muzeydə duzdan hazırlanan əl işlərinin satışı da təşkil olunub. Buranı hər il dünyanın müxtəlif ölkələrindən – Rusiya, Türkiyə, İran, Qazaxıstan, Ukrayna və digər yerlərdən yüzlərlə insan ziyarət edir.

Naxçıvan duzunun tarixdə oynadığı mühüm rolu bütün dünyaya çatdırmaq, elmi araşdırmalar nəticəsində əldə olunan maddi mədəniyyət nümunələrinin qorunub saxlanmasını və təbliğini təmin etmək üçün Duz Muzeyinin *www.duzmuzeyi.nakhchivan.az* internet saytı da fəaliyyət göstərir. Saytda izləyicilər muzey haqqında müxtəlif bölmələrlə, eyni zamanda fotoşəkillər və videoçarxlarla da yaxından tanış ola, muzeyə virtual səyahət edə bilərlər.

### *Hər kəs əlindən gələni…*
### *Hər kəs bir eksponat…*

Muzeyi bir yerdə gəzir və müzakirəni davam etdiririk:

– Duzdağ həm müalicə, həm də turizm məkanıdır. Buraya hər il minlərlə insan müalicə almağa, eyni zamanda Ulu Yaradanın naxçıvanlılara töhfəsi olan bu yeraltı möcüzəni görməyə gəlirlər. Həm xəstələrin, həm də turistlərin əksəriyyəti Duz Muzeyinin də yerləşdiyi və qonaqlara bütün zəruri xidmətlərin göstərildiyi, onların sağlamlığı və rahatlığı üçün hər cür şərait yaradılan "Duzdağ" otelində qalırlar. Son dövrlərdə turistlər getdikləri yerlərdə səyahət ərzində bir neçə turizm növündən yararlanmaq istəyirlər. Müalicə turizmi məqsədilə səyahət edən turistlər getdikləri ölkələrin tarixi, mədəniyyəti, incəsənəti ilə yaxından tanış olmağa da cəhd edirlər. Deməli, muzeyin hər gün onlarla ziyarətçisi olur. Qürurverici haldır ki, onlar Duzdağın qədim və mədəni potensialını özündə cəmləşdirən bu muzeylə tanış olub, muxtar respublikamızdan zəngin təəssüratla ayrılırlar.

– Ölkəmizin turizm potensialında muxtar respublikamızın özünəməxsus yeri vardır. Nəzərə alsaq ki, Duzdağ diyarımızın ən çox turist axışan bölgəsidir və Duz Muzeyi ən çox ziyarət olunan muzeylərimizdəndir, muzeyin daha da zənginləşdirilməsi, təbii ki, təqdirəlayiq hal olar. Muzey yaradılıb, istifadəyə verilib. Bu, muxtar respublikamızın keçmişinə, bu gününə verilən dəyər, gələcək nəsillərə ərməğandır. Məncə, muzeylər xalqın "evidir". Çünki evlərimizdə övladlarımızı böyüdüb, tərbiyə edib, soykökümüzlə tanış edib cəmiyyətə veririksə, muzeylərimiz xalqımızın, ümumilikdə, tarixinin qorunduğu məkan, böyük şəxsiyyətlərinin əbədi mənzili, saxlanc yerimizdir. Buna görə də yaradılan muzeylərə hər kəs töhfəsini verməklə onları daha da zənginləşdirməlidir.

– Məsələn, bu muzeyin bir bölməsində heykəltəraşlarımız Duzdağ möcüzəsini yarada bilərlər. Sal duz parçaları ilə Duzdağ Fizioterapiya Mərkəzinin şaxtasının kiçildilmiş möhtəşəm modeli bura gələnlərdə o qədər gözəl təəssürat yarada bilər ki…

– Məncə, şaxtaya girişdən tunelboyu duzların o girintili-çıxıntılı əsrarəngiz görüntülərinin fonunda çəkilmiş rəsm əsəri də maraqlı olar. Məsələn, rəssamlarımızdan biri Sabir Məmmədovun yaratdığı Nuh Peyğəmbərin heykəli kimi öz təxəyyülünə əsasən gözəl bir rəsm əsəri çəkə bilər. Həmin rəsm bax, qarşıdakı o divarda çox möhtəşəm görünər.

– Muxtar respublikamızda dekorativ, tikmə, toxuma və aplikasiya, taxta üzərində yandırma və oyma, xalçaçılıq, mis üzərində döymə və bir-birindən maraqlı əl işləri düzəltməklə məşğul olan yüzlərlə insan var. Duzdağın, Nuh Peyğəmbərin rəsmlərini xalçalara ilmələmək, kətan üzərinə rəngbərəng saplarla həkk etmək, sulu və yağlı boya ilə tablolara köçürmək, taxta, mis üzərinə işləmək gözəl olmaqla yanaşı, muzeydə eksponatların sayının artmasına, tamaşaçıların marağına da səbəb ola bilər.

– Böyük duz sallarından Naxçıvanın bütün tarixi-mədəni abidələrinin, mağara və dağ, xüsusilə Haçadağın, Əlincə qalasının modellərini düzəltmək, kiçik duz kristallarından istənilən fiquru hazırlamaq olar ki, diyarımızda bunları və yuxarıda sadalananların hamısını bacaranlar var. Bəlkə də, kəndlərimizdə evlər var ki, zirzəmilərində vaxtilə düzəldilmiş müxtəlif duz fiqurları və ya duzla bağlı hansısa bir əşya bir kənara atılıb qalıb.

– Naxçıvanın şəhər kimi formalaşmasında Naxçıvan duzunun və Duzdağın böyük əhəmiyyəti olub. Bunu Duzdağa və Duz Muzeyinə gələn qonaqlar vasitəsilə dünyaya çatdırmaq hər bir naxçıvanlının böyük istəyi olmalıdır. Belə isə hər birimiz – rəssam, heykəltəraş, xalçaçı, sənətkar, jurnalist, əl işi hazırlamağı bacaran hər kəs əlimizdən gələni muzeyimizə bağışlayaq. Evlərimizdəki duzla bağlı eksponatları bura təhvil verək. Muzeyimizdəki mətbuatla bağlı guşəni duz, Duzdağ haqqında qəzet, jurnal materialları, kitablarla zənginləşdirək.

– Yaxşı olar ki, muzeyin bir divarına vurulan böyük monitorda Naxçıvan televiziyasının Naxçıvanın tarixi, duzla, Duzdağla, milli dəyərlərimiz, adət-ənənələrimizlə bağlı sənədli filmləri və videoçarxları Azərbaycan, rus və ingilis dillərinə tərcümə olunaraq daim nümayiş etdirilsin.

Bir sözlə, hər kəs, sadəcə, əlindən gələni etməklə, hər kəs muzeyə bir eksponat bağışlamaqla qədim tariximizə, mədəniyyətimizə öz böyük töhfəsini verə bilər.

**Mətanət MƏMMƏDOVA**
**Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvanlı məktəbli beynəlxalq müsabiqənin diplomuna layiq görülüb




Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində keçirilən məktəblilərin "Elmə start" VIII Beynəlxalq elmi-tədqiqat və yaradıcılıq müsabiqəsinin birinci mərhələsinə yekun vurulub. Müsabiqədə iştirak edən AMEA Naxçıvan Bölməsinin əməkdaşı, kimya üzrə fəlsəfə doktoru, dosent Fizzə Məmmədovanın rəhbərliyi altında Naxçıvan Qızlar Liseyinin IX sinif şagirdi Nuray Məmmədovanın "Naxçıvan Muxtar Respublikasının bəzi yeraltı sularının minerallığının təyini" adlı layihəsi diploma layiq görülüb.

Müsabiqənin münsiflər heyəti tərəfindən Nuray Məmmədova III dərəcəli qalib diplomu, elmi rəhbəri Fizzə Məmmədova isə tələbələrin tədqiqat və yaradıcılıq fəaliyyətinin təşkili və aparılması sahəsində peşə fəaliyyətinin nəticələrini tətbiq etmələrinə kömək etdiyinə görə "Yenilikçi pedaqoji işçi" sertifikatı ilə təltif edilib.

Fizzə Məmmədova və Nuray Məmmədova 1-3 mart tarixlərində Moskva şəhərində keçiriləcək məktəblilərin "Elmə start" VIII Beynəlxalq elmi-tədqiqat və yaradıcılıq müsabiqəsinin ikinci mərhələsində iştirak etmək üçün dəvət alıblar. Növbəti mərhələdə Nuray Məmmədova təqdim etdiyi layihəsinin təcrübi hissəsini əyani şəkildə nümayiş etdirəcək.

Qeyd edək ki, AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində elmə marağı olan 50 şagird bölmə alimləri tərəfindən hamiliyə götürülərək fərdi və kollektiv şəkildə tədqiqatlara cəlb ediliblər.

***AMEA Naxçıvan Bölməsinin İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi***

# Turizmin yeni carçısı – idman turizmi

***Dövrümüzdə dinamik şəkildə aktivləşən və beynəlxalq iqtisadiyyata inteqrasiya edən turizm sisteminin qurulması Azərbaycanda sosial həyatın başlıca məsələlərindən biridir. Müasir dövrdə dünyada bir sıra ölkələr iqtisadiyyatlarını gücləndirmək, davamlı inkişafa nail olmaq üçün turizmin müxtəlif sahələrindən istifadə edirlər. Hazırda idman iqtisadiyyatın əsas gəlir gətirən sahələrindən biri hesab edildiyindən idman turizminə də xeyli üstünlük verilir. İqtisadiyyatın "gənc sahəsi" olan idman turizmi önəmli bir qeyri-neft sektorudur. Müasirləşmə və əhəmiyyətli dəyişikliklər idman sektorunda da müəyyən yeniliklərin ortaya çıxmasına zəmin yaradıb.***

***İdman turizmi və növləri***

Qısa olaraq idman turizmi barədə: Müasir dövrümüzdə idmana marağın artmasına səbəb onun azad rəqabət, mübarizə şəraitində həyata keçirilməsi, eyni zamanda bu sahənin "sülhün carçısı" adlandırılmasıdır. İdman sayəsində dövlətlər, xalqlar arasında münasibətlərin yaxşılaşması ilə ölkədən-ölkəyə səfər edənlərin də sayı artıb. Bu da idman turizmi anlayışını gündəmə gətirib.

Yeni yaranmasına baxmayaraq, bu sahə dünyanın əksər inkişaf etmiş ölkələrinin iqtisadiyyatlarında aparıcı yer tutur. Dünya dövlətlərinin əksəriyyətinin ən böyük məqsədlərindən biri idman turizminin davamlı inkişafına nail olmaqdır. Beynəlxalq aləmdə bu turizm növü idmanla əlaqəli fəaliyyətlərdə iştirak etmək və ya görmək üçün səyahət deməkdir. Ümumi olaraq idman turizminin üç növü var:

– İdman tədbirləri turizmi – bura olimpiya oyunlarında və dünya çempionatlarında keçirilən idman tədbirləri daxildir;

– Aktiv idman turizmi – bu turizmə üstünlük verənlərin özləri də iki yerə – "Aktiv iştirak edənlər" və "Hobbistlər" kateqoriyalarına bölünür. Aktiv idman iştirakçıları seçdikləri idman növlərində həvəskar olaraq, hobbistlər isə idman səyahətlərində, sadəcə, zövq almaq üçün iştirak edirlər;

– Nostalji idman turizmi – bu növ turizmə idmanla bağlı məşhur yerləri görmək üçün edilən səyahətlər daxildir. Bu səyahətlərdə idman tədbirlərinin keçirildiyi qədim binalar və ya müəyyən idmançıların ev-muzeyləri ziyarət edilir. Bu, ümumilikdə, idmanın tarixi ilə maraqlananların üstünlük verdiyi səyahət növüdür.

Bu gün idman boş vaxtın səmərəli keçirilməsi, həm də sosial sağlamlığın qorunması ilə bağlı mühüm bir xidmət sektoru sayılır: regiona qoyulan investisiyaların artırılması, ölkəyə xarici valyutanın daxil edilməsi və sair. İdman turizminin inkişaf etdiyi ölkələrdə idmançı, menecer, tamaşaçı və vəzifəli şəxs kimi fəaliyyət göstərənlərin xərclədiyi vəsait idman turizminin iqtisadi təsiridir. Bu



turizm növünün inkişaf etmiş formaları içərisində, əsasən, qış, yay, su və dağ idman növlərini göstərə bilərik. İdman turizmində mövsümilik xarakterik olduğu üçün idman tədbirləri bütün fəsillərdə davam etmir.

Ölkəmizdə qeyri-neft sektorunun inkişafına önəmin qabarıq olduğunu nəzərə alsaq, o zaman idmana göstərilən diqqət və qayğının pik nöqtədə olduğunu deyə bilərik. Hazırda ən geniş yayılan və sevilən sahə olan idman ölkəmizin iqtisadiyyatında aparıcı amillərdən biridir. Mütəmadi olaraq təşkil edilən idman tədbirləri, müxtəlif yarışlar Azərbaycana daha çox turistin gəlməsinə şərait yaradıb ki, bu da idman turizmi anlayışını formalaşdırıb.

***Muxtar respublikada bu sahənin inkişafı üçün əlverişli şərait mövcuddur***

İdman yarışları zamanı xoşagəlməz hadisələrin baş verməsi qaçılmazdır. Xüsusilə böyük idman tədbirlərində qonaqlar hər an təhlükə ilə üz-üzə qala bilərlər. Naxçıvan bu cəhətdən bölgədə kifayət qədər əlverişli mövqeyə sahibdir. Aparılan statistik göstəricilərə əsasən Azərbaycan, eləcə də onun Naxçıvan Muxtar Respublikası dünyanın ən təhlükəsiz məkanlarındandır. Önəmli faktor olan təhlükəsizliyin təminatı bura gələn turistlərə rahat səyahət etməyə zəmin yaradır. Turizm istehlakçıları getdikləri yerlərdə informasiya təhlükəsizliyi ilə də maraqlanırlar. İnformasiya təhlükəsizliyi pozulduğu zaman idmançılar yanlış məlumatlar əldə edirlər ki, bu da yolverilməzdir. Eyni zamanda idmançılar səyahət etdikləri yerdə psixoloji təhlükəsizliyə də üstünlük verirlər.




Ümumiyyətlə, idman tədbirlərini təşkil edən federasiya və qurumlar qərar qəbul edərkən, təhlükəsizlik, infrastruktur, iqlim şəraiti və siyasi münasibətləri nəzərə alırlar. Muxtar respublikada idman tədbirlərinin keçirilməsi üçün bütün bunlar mövcuddur.

Diyarımızın iqlimi də bunun üçün əlverişlidir. Burada iqlim kontinentaldır; soyuq qış və isti yay ayları müşahidə olunur. Dağ əraziləri soyuq və yağışlı olmasına baxmayaraq, düzən əraziləri, əsasən, qurudur. Belə iqlim şəraitinin olması həm yay, həm də qış aylarında burada idman tədbirlərinin keçirilməsinə təkan verir. Qış aylarında Şahbuz və Ordubad kimi bölgələrdə qış idman turizm yarışları təşkil olunur.

Muxtar respublikamızda idman turizminin inkişaf faktorlarından biri də əhalinin səmimi, mehriban və qonaqpərvər olmasıdır. Dünya təcrübəsində müşahidə olunub ki, turistlər getdikləri ölkələrdə əhalinin onlara qarşı münasibətinə çox fikir verirlər. Gözəl münasibət görən turistlər ölkəsinə məmnun qayıdır və bununla da bir daha gəlməyi planlaşdırırlar.

Son illər yeni idman növlərinin inkişafına da dəstək göstərilir. Belə ki, muxtar respublika ərazisində ənənəvi idman növləri ilə birgə ekstremal idman növlərinin inkişafı da diqqətdə saxlanılır. Bu kimi idman növləri dünya miqyasında tanınır, turistlər və idman həvəskarları tərəfindən daha çox sevilir. Ekstremal idman növlərinin inkişafı diyarımıza yeni turistlərin cəlb olunmasını təmin edir.

Muxtar respublikamızda idman turizminin inkişafını stimullaşdırmaq üçün mövcud olan infrastruktur daha da təkmilləşdirilib. İdmanın və bədən tərbiyəsinin mövcud hüquqi bazasını müasir tələblər səviyyəsinə çatdırılmasına, idmanın daha da kütləviləşdirilməsinə nail olunub, bu sahədə mühüm olan təşkilati, sosial və hüquqi tədbirlər dünya standartlarına uyğunlaşdırılıb.

İdmanın turizmlə qarşılıqlı əlaqəsi danılmazdır. Bu sahəyə diqqətin artırılması onun turizminin davamlı inkişafına zəmin yaradır. Həm də idmanın stimullaşdırılması üçün artıq bölgəmizdə kadr hazırlığı sistemi formalaşdırılıb ki, bu da dünya standartlarına cavab verəcək səviyyədədir.

***İdman turizmi üçün görülən işlər***

İdman turizmində ən böyük üstünlük turistlərin müasir şəkildə inşa edilən mərkəzlərə üz tutmasıdır. Muxtar respublikamız uzun illərdir, bura gələn idmançıları, turistləri dünya standartlarına uyğun binalarda, kompleks, zal və stadionlarda qarşılamaqla, eləcə də festival və beynəlxalq əhəmiyyətli tədbirlərin yüksək səviyyədə təşkili ilə turistlərin sevimli məkanına çevrilib. Son illər isə Naxçıvan turizmi üçün olduqca əlverişli olan dağ-xizək turizmi yaradılıb. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2018-ci il noyabrın 29-da Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması ilə bağlı Sərəncam imzalayıb. Məhz bu sərəncam bir daha göstərdi ki, diyarımız mükəmməl turizm potensialına malikdir. Elə həmin il 31 yanvar tarixli Sərəncamla təsdiq edilən "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq Ağbulaqda kənd və dağ-xizək turizminin inkişafı üçün kompleks işlər görülür. Xizək mərkəzinin yaradılmasına isə 2018-ci ilin iyul ayından start verilib. Mərkəzdə ümumi uzunluğu 1590, eni isə 30 metr olan dağ-xizək enişi, kanat yolu, xizəksürmə məktəbi, əyləncə və uşaq parkları turistlərin ixtiyarına veriləcək. Relyefi və iqlim xüsusiyyətləri dağ xizəkçiliyinin – idman turizminin inkişafı üçün əlverişli olan Ağbulaq Xizək Mərkəzində artıq inzibati bina və yeni xidmət sahələri, hər biri ikinəfərlik olmaqla, 3 kottec inşa edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri turizmin inkişafı ilə bağlı çıxışlarında da Ağbulaq kəndinin nə qədər önəmli bir bölgə olduğunu deyib: ***"Ağbulaq kəndində ilin bütün fəsillərində turizmi inkişaf etdirmək mümkündür. Təbiəti, havası və müasir infrastrukturu kənddə istər yaz, yay və payız, istərsə də qış turizminin inkişafı üçün geniş imkanlar açır. Qış turizminin inkişafı sahəsindəki imkanları nəzərə alınaraq kənddə dağ-xizək mərkəzinin qurulmasına başlanılmışdır. Turizmin inkişafı sahəsində həyata keçirilən tədbirlər Ağbulaq kəndini təkcə muxtar respublikada deyil, ölkəmizdə və dünyada tanıdacaqdır".***

Göründüyü kimi, muxtar diyarımızda yaradılmış xizək mərkəzi bu bölgəyə qış fəslində də turistlərin axını ilə nəticələnəcəkdir.

Naxçıvan Muxtar Respublikasında idman turizminə töhfə verən digər idman növü şahmatdır. Hər il ümummilli lider Heydər Əliyevin doğum gününə həsr olunan Beynəlxalq Şahmat Festivalı da öz möhtəşəmliyi, təşkilatçılığı ilə yadda qalır. Burada dünyanın bir çox tanınmış şahmatçıları mübarizə aparır ki, bu da təkcə Azərbaycanda deyil, dünya mediasında da böyük əks-səda yaradır. Festivalda 15-dən çox ölkə, 350-dən çox zəka sahibi və onlar arasında beynəlxalq qrossmeysterlər, beynəlxalq ustalar və FİDE ustaları



iştirak edir. Təbii ki, bu nüans muxtar respublikamızın idman turizminə nə qədər önəm verdiyinin bariz nümunəsidir. Həmçinin son illər Naxçıvanın mərkəzi futbol arenasında təşkil olunan Azərbaycan Kubokunun final görüşləri, "Heydər Əliyev Kuboku" turniri bu sahənin inkişaf göstəricisidir.

İdman turizmi həm də ölkələr və xalqlararası həmrəyliyin, multikultural və milli dəyərlərin nümayiş etdirilməsi, dünyəvi hadisələrə ümumbəşəri münasibətin ifadə vasitəsi kimi də mühüm əhəmiyyət kəsb edir. Türkiyənin müxtəlif peşə sahiblərindən və nüfuzlu kütləvi informasiya vasitələrinin əməkdaşlarından ibarət alpinist qrupunun naxçıvanlı idmançılar ilə birgə Xocalı soyqırımı qurbanlarının xatirəsini anmaq üçün Culfa rayonu ərazisindəki hündürlüyü 2 min 415 metr olan Haçadağa ənənəvi yürüşü buna unikal nümunədir. Bu, diyarımızın ərazisinin idman turizminin ən maraqlı növlərindən olan dağ-piyada turizmi üçün geniş imkanlara malik olması ilə yanaşı, həm də muxtar respublika idmançılarının vətənpərvərlik ruhunu, ictimai-siyasi fəallıqlarını da bir daha təsdiqləyir.

Müxtəlif ölkə idmançılarının muxtar respublikaya səfərləri, burada keçirilən turnirlərdə iştirakları diyarımızın təbliğinə, beynəlxalq aləmdə müsbət imicinin yüksəlməsinə töhfədir. Burada uğurla həyata keçirilən idman siyasəti də məhz bu amala xidmət edir. İdman turizminin inkişafı mədəniyyətlərarası dialoqa, tolerantlığa mühüm töhfələr verə bilər. Turistlər və onları qəbul edən ölkələr arasında mədəni əlaqələrin inkişafı münaqişələrin yaranma ehtimalının aradan qaldırılmasına müsbət təsir göstərir. İdman turizminin inkişafı, həmçinin turizm imkanlarının geniş olması Naxçıvanın gələcəkdə İslam dünyasının "Turizm paytaxtı" elan olunmasına da şərait yaradır. Bu, həm mədəni, həm də turizm əlaqələrimizi genişləndirmək üçün mühüm bir fürsət olar.

Digər ölkələrlə əməkdaşlığın daha da möhkəmləndirilməsi, Azərbaycanın, eləcə də diyarımızın mədəni irsinin, incəsənətinin, müasir inkişaf səviyyəsinin dünyada təbliği, həmçinin turizm əlaqələrinin genişləndirilməsi məqsədi daşıyan idman turizmi bu gün Naxçıvanda qarşılıqlı sülhün bərqərar olması, insanların birgə fəaliyyətə cəlb edilməsi və bir məqsəd uğrunda birləşməsinə xidmət edir.

✍ **Ceyhun MƏMMƏDOV**

## Əlyazmalar Fonduna yeni əlyazma və çap kitabları hədiyyə edilib



*AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fonduna Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən 24 yeni əlyazma və çap kitabı daxil edilib.*

Bu münasibətlə keçirilən tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev tariximizi özündə əks etdirən qədim əlyazma və çap kitablarının əvəzsiz rolundan danışıb.

Mədəniyyət Nazirliyi tərəfindən əldə olunan kitabların qurumun Əlyazmalar Fonduna hədiyyə edilməsini yüksək qiymətləndirən bölmə sədri milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və təbliği istiqamətində Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyevin xidmətlərini xüsusi vurğulayıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, zəngin və əhatəli kitab xəzinəsi təkcə Azərbaycan üçün deyil, ümumilikdə, bəşər sivilizasiyasının və dünya tarixinin araşdırılmasında böyük əhəmiyyətə malikdir.

Nazir qeyd edib ki, tarixi və mədəni əhəmiyyət kəsb edən eksponatların, həmçinin qədim əlyazma və kitab nümunələrinin muzeylərə və elmi-tədqiqat müəssisələrinə hədiyyə edilməsi muxtar respublikada qədim tariximizə, zəngin mədəniyyətimizə göstərilən diqqət və qayğının əməli nəticəsidir.

Əlyazmalar Fondunun direktoru, filologiya üzrə elmlər doktoru Fərman Xəlilov bildirib ki, Azərbaycan, ərəb və fars dillərində olan 24 adda əlyazma və çap kitabı sırasında Salman Mümtazın tərtib etdiyi "Azərbaycan ədəbiyyatı: Aşıq Abdulla", "Azərbaycan ədəbiyyatı. El şairləri" (II cild), Abdulla Şaiqin "Türk ədəbiyyatı", Qafur Rəşadın "Coğrafiya" dərsliyi, müəllifi bəlli olmayan "Fars dili dərsliyi" və digərləri var.

***AMEA Naxçıvan Bölməsinin İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi***

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyi işaxtaranları Naxçıvan Regional PeşəTədris Mərkəzində elektrik montyoru peşəsi üzrə kurs keçməyə dəvət edir. Kursun tədris müddəti 2 aydır.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər tələb olunan aşağıdakı sənədləri 29 fevral 2020-ci il tarixədək yaşadıqları ərazi üzrə Məşğulluq mərkəzlərinə təqdim etməlidirlər:

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi arayış.*
*Əlaqə telefonu: 545-32-33*

***İtmişdir***

Şərur rayonunun Yengicə kəndində yaşamış Əhmədov Bahaddin Əzim oğlunun adına olan JN-5198 inventar nömrəli, 10207018 kodlu Dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 162